BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2010*

## JURNALİSTİKA

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFI SAHƏSİNDƏ AVROPA ŞURASININ FƏALİYYƏTİ

**S.R.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***sabir.rm@rambler.ru***

*Məqalədə beynəlxalq informasiya əməkdaşlığının nəzəri-konseptual əsasları və bu səpkidə Avropa Şurasının fəaliyyəti araşdırılır. Xüsusi olaraq vurğulanır ki, söz və özünüifadə azadlığı, kütləvi informasiya vasitələrinin fəaliyyət meyarları, jurnalistlərin iş prinsipləri, media-məmur münasibətləri, informasiyaya giriş məsələləri Avropa Şurasının sənədlərində geniş formada təhlil olunur və lazımi tövsiyələr verilir. Müəllif qeyd edir ki, ümumavropa informasiya sahəsinin yaradılması ideyası artıq reallaşmağa başlayıb və bununla əlaqədar formalaşan beynəlxalq əməkdaşlıq hazırda həqiqətən lazımi istiqamətdədir.*

Kütləvi informasiya vasitələrinin inkişaf meyllərinin təhlili onu göstərir ki, beynəlxalq məsələlərin həllində medianın rolu getdikcə artır. Beynəlxalq münasibətlər sisteminin inkişafında media vasitələrinin nüfuzunun artması ümumavropa informasiya sahəsinin yaradılması ideyasının əsasını təşkil edir. Bununla əlaqədar nəzərə almaq lazımdır ki, müasir dövrdə KİV-in inkişafı yalnız texniki, texnoloji və yaxud iqtisadi proses kimi nəzərdə tutulmur, o həm də əsaslı sosial-iqtisadi fəaliyyət növüdür. Avropa Şurası bu amili bütövlüklə qəbul edir və öz fəaliyyətində KİV-in inkişafına və təkmilləşməsinə, medianın fəaliyyət meyarlarının işlənib hazırlanmasına və nəticə etibarilə Avropa informasiya məhsulunun istehsalına, yayılmasına və satışına hərtərəfli şərait yaradır. Bununla belə Avropa Şurası hesab edir ki, vahid ümumavropa informasiya məkanının yaradılması və media vasitələrinin oxşar struktura malik olması uzun illərin gərgin əməyi nəticəsində reallaşa bilər. Bununla belə Avropa Şurasının siyasəti ona yönəlib ki, kontinentin bütün ölkələrində siyasi və iqtisadi şəraitdən asılı olmayaraq demokratik və plüralist cəmiyyətin əsaslandığı prinsiplər və dəyərlər sistemi hökm sürsün. Bunların sırasında hüququn aliliyi, insan haqlarına hörmət, hakimiyyət qollarının müstəqilliyi, KİV-in plüralizmi və muxtariyyəti başlıca yer tutur.

İndiyədək Avropa Şurası geniş miqyasda informasiya vasitələrinin, jurnalistlərin, hakim qurumların və həmçinin ictimai birliklərin fəaliyyətinə dair 100-dən artıq sənəd qəbul edib və onların həyata keçməsi prosesini tənzimləyən tövsiyələr hazırlayıb [1]. Bu sənədlər mütəxəssislər, işçi qruplar və KİV üzrə Rəhbər komitə tərəfindən hazırlanır, sonra isə Nazirlər Komitəsi və Avropa Şurası Parlament Assambleyası tərəfindən baxılıb təsdiq edilir. Avropa məkanında kütləvi informasiya vasitələrinin fəaliyyətini müəyyənləşdirən hüquqi prinsiplərin özülü kimi İnsan Haqları üzrə Avropa Konvensiyası çıxış edir. İHAK-a istinad edərkən mütəxəssislər nədənsə bu beynəlxalq sənədin 6-cı maddəsini nəzərdən qaçırırlar. Həmin maddədə deyilir: "Öz fikrini ifadə etmək azadlığı demokratik cəmiyyətin ən əhəmiyyətli

özülünü təşkil edir, onun inkişafı hər bir şəxsin özünün reallaşdırılması üçün əsas şərt kimi çıxış edir. Bununla əlaqədar mətbuatın informasiya və ideya yaymaq azadlığı və insanların onu qəbul etmək hüququ xüsusi əhəmiyyət kəsb edir" [2, 9].

Sənədlərin təhlili onu göstərir ki, Avropa Şurasının araşdırdığı problemlər həqiqətən çox əhatəlidir, hər bir məsələnin dərin məzmunu var. Bu sənədlərin ümumavropa miqyasında icra olunması nəzərdə tutulur. Onlar üzv-dövlətlərin qanunvericilik aktlarının hazırlanması prosesində etalon kimi çıxış edir, dövlət orqanları və kütləvi informasiya vasitələrin praktiki fəaliyyətində hərtərəfli istifadə olunur, müxtəlif hökumət qaydalarının tətbiqində, regional və beynəlxalq təşkilatların sənədlərinin hazırlanması prosesində nəzərə alınır.

Qeyd etmək lazımdır ki, Avropa Şurasının fundamental xarakterli sənədləri praktiki olaraq İHAK-ın 10-cu maddəsini nəinki təsdiq edir hətta onun mahiyyətini inkişaf etdirir. Bu fikir öz təsdiqini, ilk növbədə "Kütləvi informasiya vasitələri və insan haqlarına dair Bəyannamə"də tapır. Bəyannamə 23 yanvar 1970-ci ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuşdur [3]. Sənəd KİV-in cəmiyyətdəki xüsusi mövqeyini, onun müstəqilliyini, mətbuat orqanlarının və bütün başqa informasiya vasitələrinin məsuliyyət meyarlarını, həmçinin media nümayəndələrinin hüquqlarının qorunması tədbirlərini müəyyən edir. Avropa Şurası hesab edir ki, "mətbuatın və başqa KİV-in dövlət orqanlarının nəzarətində olmaması və tam müstəqil formada fəaliyyət göstərməsi qanunlarda öz əksini tapmalıdır", "həmin müstəqilliyin məhdudlaşdırılması icra hakimiyyəti orqanlarının qərarı ilə deyil, yalnız məhkəmə qətnaməsi ilə baş verə bilər". Bəyannamənin iki mühüm maddəsi KİV-in müstəqilliyinə qarşı inhisarlar tərəfindən yönəlmiş təhlükələrin aradan qaldırılmasını nəzərdə tutur. Dövlətin nəzarətində olan inhisarların fəaliyyəti daha təhlükəli hesab olunur. Sənəddə üstüörtülü və dolayısı yollarla tətbiq olunan senzura addımları qəti şəkildə pislənilir. Bəyannamə həmçinin jurnalistlərin və informasiya vasitələrinin fəaliyyətinin etik normalarla tənzimlənməsi prosesində mühüm rol oynayır.

29 aprel 1982-ci ildə Avropa Şurasının informasiya və ifadə azadlığına dair Bəyannaməsi elan olunmuşdur [1.7-10]. Bu sənədi həm də "İnformasiya vasitələrinin Avropa xartiyası" adlandırırlar. Bəyannamə mətbuat və informasiya azadlığına riayət edilməsinə dair müvafiq öhdəliklər qoyur. Qeyd olunur ki, informasiyanın açıqlığı və plüralizmi cəmiyyətin hərtərəfli inkişafını təmin edən əsas amillərindəndir. İnformasiyaya girişi yaxşılaşdırmaq üçün yeni texnologiyanın tətbiqinə, informasiya axını infrastrukturunun inkişafına xüsusi diqqət yetirmək lazımdır. Bəyannamədə vurğulanır ki, "Avropa xalqlarının mədəni və mənəvi dəyərlərinin yayımı üçün informasiya böyük vasitədir". Elmi-texniki nailiyyətlərin yayılmasında, "Avropa həmrəyliyi və vahidliyi" hissinin təbliğində informasiyanın əvəzolunmaz rolu var.

Avropa Şurasının ən əhəmiyyətli sənədlərindən biri "Sərhədsiz televiziyası haqqında Avropa konvensiyasıdır" [3]. Sənəd 1989-cu ildə qəbul olunmuşdur. Konvensiyanın məqsədi transsərhəd televiziya yayımının beynəlxalq hüquqi bazasını müəyyənləşdirməkdir. Konvensiyanın tətbiqetmə sahəsi İHAK-ın 10-cu maddəsi əsasında fəaliyyət göstərən üzv-dövlətlərin teleyayım məkanıdır. Bu yayım kabel, peyk və efir vasitəsilə baş verə bilər. Konvensiyanın maddələrində belə bir tələb qoyulur ki, iştirakçı tərəflər milli televiziya təşkil etməli, onun siyasi və maddi məsələlərini həll etməli və beynəlxalq səviyyəyə çıxmasını təmin etməlidirlər. Burada reklam fəaliyyətinin və sponsorluq işinin ciddi formada tənzimlənməsi tələbi qoyulur. Milli efir əsasən milli proqramlardan təşkil olunmalıdır. Diqqətəlayiq məsələlərdən biri də Konvensiyanın həyata keçməsi mexanizminin mövcud olmasıdır. Bütövlükdə,

milli televiziyanın fəaliyyəti sahəsində ciddi qayda-qanunun yaradılması Avropa Şurasının ən vacib vəzifələrindən hesab olunur.

Kütləvi informasiya vasitələrinin fəaliyyətinə dair Avropa Şurasının sənədlərini bir neçə qrupa bölmək olar. Bölgü meyarı kimi həmin normativ aktlarda əks olunan məqsədlər çıxış edə bilər. Sənədlərin böyük bir qrupu ən nüfuzlu və geniş yayılmış KİV bölməsi olan elektron informasiya vasitələrinin inkişaf problemlərini əks etdirir.

Hələ 1975-ci ildə AŞPA özünün 748 və 749 saylı tövsiyələri ilə «Milli teleyayımın rolu və onun idarə edilməsi haqqında» və «Avropa tele- radioyayımının inkişafı haqqında» təkliflər paketini ortaya qoymuşdur. Sənədlərdə xüsusi qeyd olunurdu ki, «hər bir şəxs azadlıqlardan istifadə edərək yayım üçün hazırladıqları materiallara görə məsuliyyət daşımalı və ölkələrində qüvvədə olan qanunlara və hüquqi normalara uyğun cavabdeh olmalıdırlar» [4, 9]. Hökumət isə, öz növbəsində, təminat verməlidir ki, «yayım vasitələrinin köməyi ilə əhalini mədəniyyət, təhsil, bədii yaradıcılıq və ictimai diskussiya haqqında informasiya ilə təmin edəcək». Cəmiyyət və dövlət qanunları qarşısında proqram yaradıcılarının məsuliyyəti açıq şəkildə hiss olunmalıdır.

Avropa Şurasının bir sıra başqa sənədlərindən də yan keçmək mümkün deyil. Həmin normativ aktların başlıqları onların məzmununu açıq şəkildə ifadə edir. Bunlar «Avropada telekommunikasiya rabitəsinin vəzifələri haqqında» (AŞPA-nın 937 saylı qətnaməsi, 1990-cı il), «Avropada yerli radioyayımın inkişafı haqqında» (AŞ Nazirlər Komitəsinin 22 saylı qətnaməsi, 1984-cü il), «Televiziya reklamının prinsipləri haqqında», «Avropada audiovizual məhsulların inkişafı haqqında», «Avropada filmlərin yayımı haqqında» (AŞPA-nın və Nazirlər Komitəsinin qətnamə və tövsiyəsi, 1984, 1986, 1987-ci illər) başlıqlı sənədlərdir.

İnformasiya yayımı prosesində mənəvi və mədəni dəyərlərin qorunmasına Avropa Şurası böyük önəm verir. Bununla bağlı 1987-ci ildə AŞPA və Nazirlər Komitəsi «Avropada radioyayımın mədəni fəaliyyəti haqqında» xüsusi sənəd qəbul etmişdir. Sənəddə üzv-dövlətlərə ünvanlanmış belə bir çağırış səslənirdi ki, «KİV-də linqvistik müxtəliflik himayə edilsin və daha da genişləndirilsin». Bununla yanaşı təcrübə və informasiya bazasının inkişafına dair «həm Qərbi və Şərqi Avropa ölkələri arasında, həm də Avropa qitəsi ilə bütöv dünya dövlətləri arasında» lazımi mübadilə aparılsın.

Yeni əsrin başlanğıcına doğru media nümayəndələrinin öhdəsində tamaşaçıların mənəvi dünyasını qoruyacaq müvafiq sənədlər toplusu artıq mövcud idi. Avropa Şurası televiziya ekranlarında zorakılığı, qanlı və tükürpədici səhnələrin göstərilməsinə və yayımlanmasına qadağa qoyan, mənəvi dəyərləri qoruyan bir çox sənədlər qəbul etmişdir. Bunlar «Zorakılığın göstərilməsini məhdudlaşdıran mədəni və maarifləndirici vasitələr haqqında», «Özündə zorakılıq, qəddarlıq və parnoqrafiya ehtiva edən videogörüntülərin yayımına dair prinsiplər haqqında» qətnamə və tövsiyədir.

2001-ci ilin sonu - 2002-ci ilin əvvəllərində Avropanın hüquqi məkanı AŞPA-nın daha bir neçə sənədi ilə zənginləşdi. Televiziya işçilərinə ünvanlanmış qətnamədə Avropa istehsalı olan filmlərin daha yaxşı yayımlanmasına və ümumiyyətlə «yerli» yaradıcılıq materiallarına üstünlük verilməsinə çağırış əks olunur. Daha bir qətnamədə «informasiya sahəsində irqçilik və ksenofobiya» mühakimə edilir. Bununla əlaqədar Avropa Şurası İnternetin fəaliyyətinə çox kəskin qiymət verir, bu sistem vasitəsilə yayımlanan verilişlərin məzmununa diqqət yetirməyi və lazımi tədbirlərin görülməsini vacib hesab edir.

Avropa Şurasının sənədlərində mənəviyyatı və ictimai əxlaqı poza biləcək

hallara qarşı əsaslı, mübarizə üsulları öz əksini tapıb. Belə tədbirlər sırasında yayımın məhdudlaşdırılması, cərimə və cəza sanksiyaları, nəzarətin gücləndirilməsi nəzərdə tutulur. Sənədlər üzv-dövlətlərin üzərinə müəyyən öhdəliklər də qoyur. Ehtiyac olduqda onlar yeni hüquqi aktlar qəbul etməli, bu mübarizəyə ictimaiyyəti cəlb etməli və ölkədəki informasiya vasitələrini əhalinin mənəviyyatının qorunmasına yönəltməlidirlər.

Bu və ya digər dərəcədə bütün üzv-ölkələrin informasiya vasitələrinə, o cümlədən Azərbaycan mediasına aid edilən bu problemlər vaxtaşırı olaraq ümumavropa müşavirələrində müzakirə olunur. Müşavirələr əsasən informasiya, mədəniyyət, ədliyyə, gənclər, daxili işlər nazirlərinin iştirakilə təşkil olunur. Tədbirlərin gedişatında xüsusi məşqələlər keçirilir. Avropa Şurasının mənzil-qərargahında müxtəlif sahələr üzrə ixtisaslaşmış işçi qruplar, o cümlədən KİV-də zorakılıq səhnələrinin qarşısının alınması üzrə ekspertlər qrupu, media-qanunvericiliyi və insan haqları üzrə mütəxəssislər qrupu, gipermәkanda cinayətkarlığa qarşı hüquqşünaslar qrupu fəaliyyət göstərir.

Sistematik olaraq Avropa Şurası kommunikasiya və kütləvi informasiya vasitələri sahəsində üzv-ölkələrin siyasətini müəyyənləşdirən nazirlərin nəzəri diskussiyalarını və elmi-praktiki konfranslarını təşkil edir. Bu tədbirlər Avropa Şurasının sözsüz ki, uğurudur. Çünki həmin konfranslar nəinki İHAK-ın 10-cu maddəsinin nə dərəcədə həyata keçməsini aydınlaşdırır, həm də kütləvi informasiya vasitələri sahəsində Avropa siyasətinin gələcəyini müəyyənləşdirir və onu inkişaf etdirir. Konfransların mövzuları özü-özlüyünə bu tədbirlərin mahiyyətini tam açıqlayır: «Avropada televiziyanın gələcəyi», «Beynəlxalq münasibətlər səpkisində Avropanın KİV siyasəti», «Avropa kütləvi informasiya vasitələri 90-cı illərdə hansı istiqamətdə inkişaf etsin», «Demokratik cəmiyyətdə kütləvi informasiya vasitələri», «İnformasiya cəmiyyəti: Avropaya çağırış» və s.

Son dövrlər Avropa Şurası həmçinin mütəxəssislər, ekspertlər və media nümayəndələri üçün kollokviumlar, məşqələlər, elmi-nəzəri konfranslar təşkil edir. Tədbirlərin mövzuları İHAK-ın 10-cu maddəsinin ayrı-ayrı problemlərini əks etdirir: «İfadə azadlığının təkamülü», «İnsan haqları və jurnalistika», «İnformasiya azadlığı və hakimiyyət orqanlarının vətəndaşlara lazımi informasiyaya girişi təmin etmək öhdəliyi», «Demokratik cəmiyyətdə telekommunikasiyanın əhəmiyyəti və onun idarə edilməsi» və s. Qeyd etmək lazımdır ki, bu tədbirlərin bir neçəsi Azərbaycanda keçirilmişdir. Ümumiyyətlə, Avropa Şurası özünün informasiya və kommunikasiya sahəsindəki siyasətini formalaşdırarkən Qərbi və Şərqi Avropa ölkələrində, o cümlədən Azərbaycanda, demokratik dəyərlərin və standartların gözlənilməsinə və onlara riayət edilməsinə daima nəzarət edir.

İnformasiya sahəsində Avropa Şurasının fəaliyyətinin təhlili, onun qəbul etdiyi sənədlərin hərtərəfli araşdırılması bu təşkilatın böyük qanunvericilik imkanlarının olmasını və həmçinin müasir dünyada onun praktiki əhəmiyyətinin artmasını açıq şəkildə göstərir. Ümumavropa hərəkatı və onun təsiri altında formalaşan və genişlənən informasiya əməkdaşlığı ölkələrə imkan verir ki, əvvəllər qarşıdurma şəraitində böyük həcmdə və lazımsız formada xərclənən maddi vəsait, intellektual imkanlar xalqların rifahının yüksəlməsinə yönəlsin. Ağılsız və mənasız qarşıdurma şəraiti birgəyaşayış prinsipləri ilə əvəz olundu. Bunun nəticəsində Avropa gitəsinin və bütün beynəlxalq aləmin inkişaf problemləri, dövlətlərarası əməkdaşlıq məsələləri və onların həlli daha düzgün, humanist mahiyyət daşımağa başladı.

Avropa Şurasının sənədlərində və əməli fəaliyyətində beynəlxalq əməkdaşlıq üçün misilsiz imkanlar var. Bu imkanlar hazırda İnsan Haqları üzrə Avropa Kon-

vensiyasının prinsipləri ilə birgə real olaraq həyata keçirilir. Avropa Şurasının sənədlərində gələcəyin əsası qoyulub. İnformasiya sahəsində əməkdaşlıq artıq ümumavropa prosesinin müstəqil istiqaməti kimi formalaşıb. Onun yeni və böyükhəcmli ölçüləri mövcuddur. Bu proses dövlətlərarası informasiya əməkdaşlığının çərçivəsini qat-qat genişləndirir, qarşılıqlı formada bilgiyə giriş imkanlarını artırır, məlumat bankların sərbəst dövriyyəsini gücləndirir və bütün qitə miqyasında informasiya şəffaflığını təmin edir.

## ƏDƏBİYYAT


1. Mediaya aid Avropa Şurasının bəyannamə və tövsiyələri. Bakı: Çaşıoğlu, 2004, 233 s.
2. Поляков Ю. Европейский процесс и средства информации // Законодательство и практика масс-медиа. Статья 10. М.: 2002, № 1, с.5-12.
3. http://library.cjes.ru/online/?b_id=515
4. Совет Европы: документы по проблемам средств массовой информации. СПб: "ЛИК", 2002, 44 с.


## ДЕЯТЕЛЬНОСТЬ СОВЕТА ЕВРОПЫ В ОБЛАСТИ РАЗВИТИЯ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ


**С.Р.МАМЕДОВ**


### РЕЗЮМЕ


В статье рассматривается роль Совета Европы в развитии средств массовой информации. Эта международная организация разработала более ста документов, касающихся информации и коммуникации, а также деятельности журналистов. Основополагающим документом в этой области является Европейская Конвенция о защите прав человека и основных свобод.

Резолюции и рекомендации Совета Европы явились основой многих законодательных актов в области прав человека, свободы слова и самовыражения. Документы Совета Европы используются в практической деятельности властными структурами государств-участников, а также редакциями средств массовой информации.


## ACTIVITY OF THE COUNCIL OF EUROPE IN THE FIELD OF THE DEVELOPMENT OF MASS MEDİA


**S.R.MAMMADOV**


### SUMMARY


The article considers the role of the Council of Europe in the development of mass media. This international organization has developed more than hundred documents, concerning information and communications as well as activity of journalists. The basic document in this area is the European Convention on Human Rights and Fundamental Freedoms.

Resolutions and recommendations of the Council of Europe were bases of many acts in the field of human rights, freedom of speech and self-expression. Documents of the Council of Europe are used in practical activities by power structures of the state-participants, and editions of mass media.